AXCP ilə Müsavat Partiyasının nümayəndə heyəti arasında görüş keçirilib.

Görüşdə AXCP-ni partiya sədri Əli Kərimli, Ali Məclisiin sədri Həsə Kərimov, sədr müavinləri Gözəl Bayramlı, Nurəddin Məmmədli, Fuad Qəhrəmanlı təmsil edir. Müsavatdan görüşə partiya başqan İsa Qəmbər, Məclis sədri Arzu Səmədbəyli, İcra Aparatının rəhbəri Arif Hacılı və başqan müavini Gülağa Aslanlı təmsil edib.

Müsavat Partiyasının təşəbbüsü ilə keçirilən görüşdə ölkədəki ictimai-siyasi vəziyyətlə yanaşı Milli Şura ilə bağlı məsələ müzakirə olunub.

Görüşdə ikitərəfli əməkdaşlıq məsələləri də müzakirə edilib.
AXCP hər iki partiyanın əməkdaşlığının hazırkı məqamda Milli Şura çərçivəsində daha prioritet olduğunu vurğulayıb: “Bizim mövqeyimiz müttəfiqliyin bu çərçivədə davam etdirilməsinin tərəfdarı olduğunu açıqlayıb”.

Qeyd edək ki, Müsavat Partiyasının Divanı müxalifətdə olan siyasi qüvvələrlə məsləhətləşmə barədə qərar qəbul edib və bu, həmin qərara əsasən keçirilən ilk görüşdür.